**“Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qa nununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təq dim etsin;

1.4. həmin Qanunun 5.4-cü maddəsində nəzərdə tutulmuş elektron imzanın yoxlanılma qaydasını müəyyən etsin;

1.5. həmin Qanunun 6.4-cü maddəsində nəzərdə tutulmuş dövlət hakimiy yəti və yerli özünüidarəetmə orqanları tərəfindən elektron imzadan istifadə qaydasını müəyyən etsin;

1.6. həmin Qanunun 9.8-ci maddəsində nəzərdə tutulmuş elektron imza üçün sertifikat verən və imzaların istifadəsi üzrə xidmətlər göstərən mərkəzin (sertifikat xidmətləri mərkəzi) qeydiyyatı və akkreditə edilməsi qaydalarını təsdiq etsin;

1.7. həmin Qanunun 10.2-ci və 11.6-cı maddələrində nəzərdə tutulmuş ser tifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması qaydalarını təsdiq etsin;

1.8. həmin Qanunun 26.2-ci maddəsində nəzərdə tutulmuş elektron sənədlərin mübadiləsi qaydasını müəyyən etsin;

1.9. həmin Qanunun 32.3-cü maddəsində nəzərdə tutulmuş tərkibində döv lət sirri təşkil edən məlumatlar olan elektron sənədlərin tərtibi, emalı və mübadiləsi üçün istifadə olunan informasiya sistemlərinin ekspertizasının keçirilməsi qaydasını müəyyən etsin;

1.10. bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabine tinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ hüquqi aktların hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

1.11. ~~"Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.14-cü, 8-ci, 9.1-ci, 9.3-cü, 9.4-cü, 9.6-cı, 9.7-ci, 16.0.3-cü, 17.1.3-cü, 17.3.7-ci, 17.3.8-ci, 17.3.9-cu, 19.2-ci, 19.4-cü, 19.5-ci, 31.4-cü, 33.1-ci, 33.2-ci, 33.2.6-cı, 33.2.8-ci, 33.2.9-cu, 33.2.1O-cu, 33.2.11-ci, 33.2.12-ci, 33.2.13-cü, 33.3-cü, 33.3.1-ci, 33.3.2-ci, 33.3.3-cü və 33.3.4-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;~~[1]

1.12. öz səlahiyyətləri daxilində "Elektron imza və elektron sənəd haqqın da" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:*[2]

*2.1. “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun 11.3-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*

*2.2. həmin Qanunun 5.4, 6.4, 9.8, 10.2, 11.6, 17.5, 32.3, 34.1 və 34.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının, habelə 33.2-ci (33.2.1 – 33.2.5, 33.2.7, 33.2.14-cü maddələrdə müəyyən edilmiş məsələlərə münasibətdə) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*2.3. həmin Qanunun 1.1.14, 8, 9.1, 9.3, 9.4, 9.6, 9.7, 16.0.3, 17.1.3, 17.3.7, 17.3.8, 17.3.9, 19.2, 19.4, 19.5 və 31.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının, habelə 33.1, 33.2 (33.2.6, 33.2.8 – 33.2.13-cü maddələrdə müəyyən edilmiş məsələlərə münasibətdə) və 33.3-cü (33.3.1, 33.3.2 və 33.3.4-cü maddələrdə müəyyən edilmiş məsələlərə münasibətdə) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir;*

*2.4. həmin Qanunun 11.1-ci və 12.4.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsiyyət vəsiqəsi verən yerli orqanları həyata keçirirlər;*

*2.5. həmin Qanunun 33.3-cü (33.3.3-cü maddədə müəyyən edilmiş məsələlərə münasibətdə) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirirlər.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 may 2004-cü il
65

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 5 aprel 2017-ci il tarixli **1319** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 7 aprel 2017-ci il, 71, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 533)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 5 aprel 2017-ci il tarixli **1319** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 aprel 2017-ci il, 71, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 533**) ilə 1.11-ci bənd ləğv edilmişdir.

[2] 5 aprel 2017-ci il tarixli **1319** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 aprel 2017-ci il, 71, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 533**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü, 6.4-cü, 9.8-ci, 10.2-ci, 11.6-cı, 17.5-ci, 32.3-cü, 33.2.1-ci, 33.2.2-ci, 33.2.3-cü, 33.2.4-cü, 33.2.5-ci, 33.2.7-ci, 33.2.14-cü, 34.1-ci və 34.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.~~